Səxavət İzzəti

## Kəhliyin Nağılı

O günlərəki üfüqdən, günəş başın əyərdi,
Qaranlıq çökə, çökdə anam nağıl deyərdi.

Çox mənzillər atdadım keçdim uzun yolları,
Hələ də yoldaşımdı anamın nağılları.

Deyir: Bir qız varımış gözəllərin gözəli,
Bu dünyanın bəzəyi yaranışın özəli.

Ağıldan sərmayalı ədəb, ərkandan dərin,
Abrı, hayâ sözündə başıydı gözəllərin.

Çox saylı elçilərdən sevdi lap yoxsulunu,
Varlıları buraxdı tutdu yoxsul əlini.

Gün gəldi toy tutuldu təzə bəylə gəlinə,
Adətcə xına yaxdı ayağına, əlinə.

Xəbəri eşitcəyin xayin varlı evladı,
Başında qoçularla gəlini oğurladı.

Gəlin çox təlaş etdi ağlayıb yaş ələdi,
Yalvarıb anda verdi məni buraxın dedi.

Gördü ürəkləri daş qulaqları sağırdı,
Üz çevirib göylərə yaradanı çağırdı:

"Tanrı məni quş elə
Qanadı gümüş elə
Eldə rusvay eləmə
Dağda günüm xoş elə
Daşlara yoldaş elə"

Uca tanrı eşitdi gəlinin fəryadını-
Onu quşa çevirib kəhlik qoydu adını.

Gəlinlik bəzəkləri unla əbədi qaldı,
Adı eldə, obada xınalı kəhlik oldu.